

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (21.053)

13 avqust 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Serbiya Respublikasının müdafiə naziri Bratislav Qaşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafının yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu əlaqələrin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkələrimiz arasında əlaqələrin müdafiə sahəsində inkişafı məsələsinə toxunan Prezident İlham Əliyev bu istiqamətdə də əməkdaşlığın perspektivləri ilə bağlı aparılan müzakirələrin əhəmiyyətini diqqətə çatdırdı.

Serbiyanın müdafiə naziri Bratislav Qaşiç dedi: “Cənab Prezident, Sizinlə – Serbiyanın böyük dostlarından biri ilə görüşməkdən məmnunluq hissi keçirirəm”. Nazir Serbiya Prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan ilə Serbiya arasında münasibətlərin inkişafına toxunan B.Qaşiç ölkələrimiz arasında ikitərəfli əlaqələrin heç vaxt indiki kimi yüksək səviyyədə olmadığını vurğuladı. O, Azərbaycan ilə Serbiya arasında münasibətlərin gələcəkdə də uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Serbiya Prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.



## Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi aparatının işçilərinin say həddi 40 ştat vahidi müəyyən edilsin.

3. “Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 23 avqust tarixli 147-II FR nömrəli Fərmanı ləğv edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 avqust 2014-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 12 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (bundan sonra – Nazirlik) rabitə (telekommunikasiya və poçt) və informasiya texnologiyaları sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, beynəlxalq və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirliyin saxlanması xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Naxçıvan şəhərində yerləşir.

### 2. Nazirliyin fəaliyyət istiqamətləri

2.1. Nazirlik aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.1.2. müvafiq sahədə dövlət tənzimləməsini həyata keçirir;

2.1.3. telekommunikasiyanın, o cümlədən simsiz texnologiyaların, genişzolaqlı internetin, poçtun, radio-televiziya yayımının inkişafını və radiotezliklərdən səmərəli istifadəni təmin edir;

2.1.4. tranzit informasiya magistrallarının və qovşaqlarının, regional informasiya xidmətlərinin yaradılmasında və genişləndirilməsində iştirak edir;

2.1.5. informasiya təhlükəsizliyinin təmin edilməsi, qlobal kiberhücumların qarşısının alınması, elektron informasiya ehtiyatlarının mühafizəsi sahəsində siyasətin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.1.6. dövlət hakimiyyəti orqanlarının xüsusitəyinatlı telekommunikasiya şəbəkələrinin qurulması, istismarı, təhlükəsizliyinin təmin edilməsi üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər həyata keçirir;

2.1.7. “elektron hökumət”in inkişafını aidiyyəti dövlət orqanları ilə birlikdə təmin edir;

2.1.8. elektron imza infrastrukturunun inkişafını və ondan geniş istifadəni təmin edir;

2.1.9. informasiya cəmiyyətinin inkişafına dair tədbirlər hazırlayır və həyata keçirir;

2.1.10. informasiya texnologiyaları sahəsində kadr hazırlığı işlərini həyata keçirir;

2.1.11. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirir;

2.1.12. müvafiq sahənin inkişafı üçün tədbirlər görür.

### 3. Nazirliyin vəzifələri

3.1. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahənin inkişafı üzrə prioritetləri müəyyən etmək, dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini təmin etmək;

3.1.2. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, bu sahədə aidiyyəti dövlət orqanları ilə birlikdə zəruri tədbirlər görmək;

3.1.3. müvafiq sahə üzrə yerli əhəmiyyətli investisiya layihələrinin hazırlanmasını, həyata keçirilməsini və idarə olunmasını aidiyyəti dövlət orqanları ilə birlikdə təmin etmək;

3.1.4. informasiya təhlükəsizliyinin təmin edilməsi və məlumatların qorunması sahəsində aidiyyəti dövlət qurumları ilə birlikdə tədbirlər görmək;

3.1.5. digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.1.6. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin hazırlanmasından, təkmilləşdirilməsindən və normayaratma fəaliyyətindən irəli gələn vəzifələri yerinə yetirmək;

3.1.7. qanunvericiliklə nəzərdə tutulan hallarda və qaydada müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) vermək, lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.1.8. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

3.1.9. müvafiq sahədə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün tədbirlər, habelə təhlükəsizlik tədbirləri görmək;

3.1.10. müvafiq sahədə tələbatın ödənilməsi üçün tədbirlər görmək;

3.1.11. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahə üzrə xidmət bazarlarının formalaşdırılmasına nəzarəti təmin etmək, xidmət bazarlarının təhlilini aparmaq, hökmran mövqe tutan operatorların və provayderlərin fəaliyyəti üzrə xüsusi tələbləri müəyyənləşdirmək;

3.1.12. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahə üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəricilərini müəyyən etmək, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müvafiq sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin göstərdikləri xidmətlərin keyfiyyətinə nəzarət etmək və monitorinqlər aparmaq;

3.1.13. ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulma və ondan istifadə qaydalarını, bu şəbəkənin inkişafı, təkmilləşdirilməsi, səmərəli və etibarlı istifadə edilməsi sahəsində siyasəti müəyyənləşdirmək;

3.1.14. qanunvericiliklə müəyyən edilmiş qaydada mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə, habelə ixrac nəzarətinə düşən mallara (işlərə, xidmətlərə, əqli fəaliyyətin nəticələrinə) xüsusi icazə vermək;

3.1.15. radiotezlik ehtiyatlarından istifadənin tənzimlənməsində və mühafizəsinin həyata keçirilməsində iştirak etmək;

3.1.16. qanunvericiliklə müəyyən edilmiş hallarda təsisçisinin və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Naxçıvan Muxtar Respublikasında yayılmasına razılıq vermək;

3.1.17. müvafiq sahə üzrə mövcud qayda və standartlara uyğun olmadan təşkil edilən xidmətlərin aşkarlanması və qarşısının alınması ilə bağlı aidiyyəti qurumlarla birlikdə tədbirlər görmək;

3.1.18. operatorlar arasında arabağlantı şərtlərini müəyyən etmək, bu sahədə fəaliyyəti tənzimləmək, qarşılıqlı mübahisələrin həlli ilə bağlı tədbirlər görmək;

3.1.19. müvafiq sahə üzrə təsərrüfat subyektlərinin inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətinin qarşısının alınması, sağlam rəqabət mühitinin formalaşdırılması və istehlakçıların hüquqlarının qorunması sahəsində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə birgə tədbirlər görmək;

3.1.20. muxtar respublikada domen adlarının qeydiyyatı və onlardan istifadəni tənzimləmək;

3.1.21. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada mobil cihazların qeydiyyatını aparmaq;

3.1.22. cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində poçt xidməti göstərən müəssisələrin fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.23. radiotezliklərdən, radioelektron vasitələrdən və bu sahədə mülki təyinatlı qurğulardan istifadə qaydalarını müəyyənləşdirmək, onların icrasına nəzarəti və telekommunikasiya vasitələrinin elektromaqnit sahəsinin monitorinqini həyata keçirmək;

Ardı 2-ci səhifədə

3.1.24. müvafiq sahədə dövlət vəsaiti hesabına maliyyələşdirilən tikintilər üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.25. müvafiq sahədə dövlət əhəmiyyətli obyektlərin tikintisi barədə təkliflər vermək;

3.1.26. universal telekommunikasiya xidmətlərinin təşkilini, keyfiyyətini, müddətini və digər tələbləri müəyyən etmək, xidmətlərə nəzarətlə bağlı zəruri tədbirlər görmək;

3.1.27. müvafiq sahədə fəaliyyət göstərən operatorların, provayderlərin və digər hüquqi şəxslərin, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin qarşılıqlı fəaliyyətini əlaqələndirmək məqsədi ilə tövsiyələr vermək;

3.1.28. müvafiq sahəyə aid olan məsələlərə dair tarif siyasətinin formalaşdırılmasında iştirak etmək, bu sahədə dövlət tərəfindən tənzimlənən tariflər barədə təkliflər vermək, habelə müvafiq sahədə tarifləri dövlət tərəfindən tənzimlənməyən xidmətlər üzrə operator və provayderlərin tətbiq etdiyi tariflərin monitorinqini aparmaq, operatorlara və provayderlərə tövsiyələr vermək;

3.1.29. qanunvericiliklə müəyyən edilmiş qaydada telekommunikasiya vasitələrinin və qurğularının sertifikatlaşdırılmasını həyata keçirmək;

3.1.30. qanunvericiliyə uyğun olaraq təşkil edilmiş poçt-maliyyə xidmətləri sahəsində fəaliyyətə nəzarətin həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsini təmin etmək;

3.1.31. dövlət poçt ödənişi nişanlarının (poçt markalarının) nümunələrini və tirajını müəyyən etmək, onların nəşrini və yayılmasını təşkil etmək;

3.1.32. Naxçıvan Muxtar Respublikasının ərazisində poçt rabitəsi obyektləri üçün poçt indekslərini müəyyən etmək və poçt rabitəsi xidmətlərinin keyfiyyətinə nəzarət etmək;

3.1.33. fövqəladə hallarda telekommunikasiya şəbəkələrinin dayanıqlı işini təmin etmək, bu məqsədlə material ehtiyatlarının yığılması planlarını hazırlamaq və həyata keçirilməsində iştirak etmək;

3.1.34. müvafiq sahədə fəaliyyət göstərən və nizamnamə kapitalında dövlətin payı olan müəssisələrdə Nazirliyə həvalə olunan hallarda və qaydada dövlətin maraqlarını təmsil etmək;

3.1.35. muxtar respublikanın bütün yaşayış məntəqələrində əhalinin keyfiyyətli və etibarlı telekommunikasiya və genişzolaqlı internet xidmətləri ilə təmin olunması ilə bağlı zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.36. poçt rabitəsi və poçt-maliyyə xidmətlərinin inkişafı üzrə zəruri tədbirlər görmək;

3.1.37. Naxçıvan Muxtar Respublikasının ərazisində radio və televiziya proqramlarının yayımını, o cümlədən rəqəmli televiziya yayımını aidiyyəti qurumlarla birgə təşkil etmək;

3.1.38. aidiyyəti dövlət orqanları ilə birlikdə muxtar respublikanın tranzit informasiya dəhlizi imkanlarının genişləndirilməsi, bu sahədə yerli və xarici operatorların fəaliyyətinin əlaqələndirilməsi, investisiyaların cəlb olunması üzrə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.39. muxtar respublikanın qlobal informasiya-telekommunikasiya şəbəkəsinə alternativ və dayanıqlı qoşulma imkanlarının artırılması üzrə zəruri tədbirlər görmək;

3.1.40. Naxçıvan Muxtar Respublikasında data-mərkəzlərin yaradılması, onların şəbəkəsinin genişləndirilməsini və informasiya xidmətlərinin təşkilini həyata keçirmək;

3.1.41. müvafiq sahə üzrə dövlət-özəl sektor tərəfdaşlığını inkişaf etdirmək;

3.1.42. aidiyyəti dövlət orqanları ilə birlikdə istehsal sahələrində informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, yüksək texnoloji və elmtutumlu məhsul və xidmətlərin yaradılması və istehsalı ilə bağlı təkliflər hazırlamaq və həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.43. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahədə investisiya mühitinin yaxşılaşdırılması, investisiyaların stimullaşdırılması ilə bağlı təkliflər hazırlamaq, yerli və xarici investisiyaların cəlb edilməsi üçün tədbirlər görmək;

3.1.44. muxtar respublikada ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etmək, kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını həyata keçirmək, əhalini, özəl və digər qurumları elektron vasitələrdən istifadə zamanı mövcud və yarana biləcək elektron təhlükələr barədə məlumatlandırmaq, onlara texniki və metodik yardım göstərmək, muxtar respublikaya daxil olan ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədi ilə internet operatorları və aidiyyəti dövlət orqanları ilə birlikdə qabaqlayıcı tədbirlər görmək;

3.1.45. muxtar respublikanın efir məkanına kənar müdaxilənin qarşısının alınması üçün aidiyyəti dövlət orqanları ilə birlikdə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.46. dövlət reyestrinə daxil edilmiş informasiya sistemlərində fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsinin qanunvericiliyin tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının informasiya sisteminin bəyan olunmuş məqsədlərinə uyğunluğunu aidiyyəti dövlət orqanları ilə birlikdə yoxlamaq;

3.1.47. elektron təhlükələrin aşkar olunması və qarşısının alınması məqsədi ilə aidiyyəti dövlət qurumları ilə birlikdə informasiya sistemlərinin və şəbəkələrinin təhlükəsizlik üzrə auditini həyata keçirmək;

3.1.48. müvafiq sahədə obyektlərin mühafizəsini təşkil etmək və fövqəladə vəziyyətlərin aradan qaldırılmasında iştirak etmək;

3.1.49. dövlət hakimiyyəti orqanlarının xüsusitəyinatlı telekommunikasiya şəbəkələrinin qurulması, belə şəbəkələrə texniki dəstək və onların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər görmək;

3.1.50. "elektron hökumət"in inkişafı üzrə fəaliyyəti əlaqələndirmək və aidiyyəti dövlət orqanları ilə birlikdə zəruri tədbirlər görmək;

3.1.51. "elektron hökumət" portalının yaradılmasını, idarə olunmasını, fəaliyyətini, inkişafını təmin etmək;

3.1.52. dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsini və elektron xidmətlərin göstərilməsini "elektron hökumət" portalı vasitəsilə təşkil etmək;

3.1.53. dövlət tədbirlərinin texniki təminatını xüsusi vasitələrlə həyata keçirmək;

3.1.54. müvafiq sahədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi elektron xidmətlərin təşkilini və göstərilməsini təmin etmək;

3.1.55. elektron imza infrastrukturunun inkişafını təmin etmək, onun idarə olunmasını və bu sahədə fəaliyyətə nəzarəti həyata keçirmək;

3.1.56. "elektron hökumət" layihəsinin gerçəkləşdirilməsi üçün tədbirlər görmək, o cümlədən informasiya sistemlərini və ehtiyatlarını yaratmaq, onların inteqrasiyasına dair texniki tələb və standartların müəyyənləşdirilməsi ilə bağlı təkliflər vermək;

3.1.57. dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrlərini aparmaq;

3.1.58. əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri arasında informasiya texnologiyalarından istifadədə rəqəmli fərqliliyin aradan qaldırılması üçün zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.59. biliklərə əsaslanan iqtisadiyyatın, o cümlədən sosial-iqtisadi fəaliyyətin yeni formalarının (e-ticarət, telesəhiyyə, teleiş və sair) inkişafı ilə bağlı aidiyyəti qurumlarla birlikdə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.60. internet resurslarının inkişaf etdirilməsi üzrə aidiyyəti qurumlarla birlikdə zəruri tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.61. müvafiq sahədə yüksəkixtisaslı kadrlara olan tələbatı öyrənmək, kadr hazırlığını təmin etmək, mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.62. müvafiq sahədə dövlət standartlarının və təsnifatlarının hazırlanmasında iştirak etmək;

3.1.63. müvafiq sahə üzrə beynəlxalq təşkilatların tövsiyələrinin öz fəaliyyətində nəzərə alınması üçün tədbirlər görmək;

3.1.64. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin muxtar respublikada həyata keçirilməsini təmin etmək;

3.1.65. insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.66. müvafiq sahəyə ayrılan büdcə vəsaiti, kreditlər, qrantlar və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.67. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.68. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyətini və maliyyə vəziyyətini təhlil etmək, onların fəaliyyətinin səmərəliliyinin artırılması barədə təkliflər vermək və tədbirlər görmək, sosial-iqtisadi inkişaf proqnozlarını, o cümlədən gəlirlər və xərclər smetasını hazırlamaq və onların icrasına nəzarət etmək;

3.1.69. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yeniləşdirilməsini təmin etmək;

3.1.70. öz fəaliyyətində ictimaiyyətin iştirakını, özəl sektor və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı təmin etmək;

3.1.71. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirləri hazırlamaq və həyata keçirmək;

3.1.72. müvafiq sahə üzrə işçilərin sosial vəziyyətinin və mədəni-məişət şəraitinin yaxşılaşdırılmasını təmin etmək;

3.1.73. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirmək;

3.1.74. Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq, onlara vaxtında cavab vermək və digər tədbirlər görmək;

3.1.75. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Nazirliyin hüquqları**

4.1. Nazirlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. müvafiq sahə üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, metodik və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək;

4.1.4. bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər çərçivəsində müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi şirkətləri, elmi təşkilatları müqavilə əsasında öz fəaliyyətinə cəlb etmək, ictimai əsaslarla işçi qrupları və komissiyalar yaratmaq;

4.1.5. qanunvericiliklə müəyyən edilmiş qaydada dövri mətbu nəşr təsis etmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.6. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.7. müvafiq sahədə yeni texnologiyalar üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün tədbirlər görmək;

4.1.8. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və digər şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək, danışıqlar aparmaq və danışıqların aparılmasında iştirak etmək, beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında iştirak etmək;

4.1.9. fövqəladə hallarda və fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrindən, qurğularından və vasitələrindən istifadə etmək, onlardan istifadəni dayandırmaq, məhdudlaşdırmaq və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq etmək;

4.1.10. fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsi ilə məşğul olan dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək, qanunun tələblərini pozmuş şəxslərin məsuliyyətə cəlb edilməsi üçün aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək;

4.1.11. müvafiq sahədə çalışan işçiləri dövlət mükafatlarına və digər təltiflərə təqdim etmək, qanunvericiliyə uyğun olaraq, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.1.12. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Nazirliyin fəaliyyətinin təşkili**

5.1. Nazirliyin aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Nazirliyin sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturunu, Nazirliyin aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri müəyyən edir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları naziri (bundan sonra – nazir) rəhbərlik edir. Nazir Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Nazir müavinləri nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Nazirliyin aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Nazirliyin kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ-hüquqi aktları qərar formasında qəbul edir;

5.5.4. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki hüquqi şəxslərin nizamnamələrini təsdiq edilmək üçün təqdim edir;

5.5.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.5.6. Nazirliyin aparatının işçilərini, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (rəhbərləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən qurumlar istisna olmaqla) rəhbərlərini, rəhbərlərin müavinlərini və digər rəhbər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tədbirləri görür;

5.5.7. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ-hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.8. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.9. Azərbaycan Respublikasının və

*Ardı 3-cü səhifədə*

xarici ölkələrin dövlət orqanları, idarə, müəssisə və təşkilatları, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.10. Nazirliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.11. dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;

5.5.12. Nazirliyin dövlət qulluqçusu olan işçilərinə ixtisas dərəcələri verir.

5.6. Nazirliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərinə tapşıra bilər.

5.8. Nazirlikdə nazirdən (kollegiyanın sədrindən), nazirin müavinlərindən və Nazirliyin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Nazirliyin kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Nazirliyin kollegiyası üzvlərinin sayını və kollegiyanın tərkibini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Nazirliyin kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələlərə baxır və müvafiq qərarlar qəbul edir.

5.11. Nazirliyin kollegiyası qərar formasında aşağıdakı normativ-hüquqi aktları qəbul edir:

5.11.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ-hüquqi aktları;

5.11.2. qəbul edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Nazirliyə tapşırılmış konkret normativ-hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ-hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ-hüquqi aktları;

5.11.5. nazirin təşəbbüsü ilə Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ-hüquqi aktları;

5.11.6. bu Əsasnamənin 5.11.1-ci - 5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Nazirliyin kollegiyasının qəbul etdiyi normativ-hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklər edilməsi barədə normativ-hüquqi aktları.

5.12. Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda nazir bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Nazirliyin kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Nazirliyin kollegiyasının iclaslarına digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Nazirlikdə ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura, internetin inkişafı şurası və digər ictimai şuralar yaradıla bilər.

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib

*Dünən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.*



Tədbiri fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev açıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə Fövqəladə Hallar Nazirliyinin də qarşısına konkret vəzifələr qoyulub. Hər il olduğu kimi, bu il də nazirlik və onun struktur qurumları tərəfindən payız-qış mövsümünə hazırlıq işləri aparılıb, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, avtomobil və xüsusi nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması diqqət mərkəzində saxlanılıb, nazirliyin cari ehtiyatında zəruri mal-material və əşya-əmlak ehtiyatı yaradılıb.

Qeyd olunub ki, ötən müddət ərzində Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin şəhər və rayon şöbələrinin inzibati binalarında və texniki qarajlarında, Mülki Müdafiə Alayının avtomobil parkında, əsgər yeməkxanası və yataqxanasında, qərargah binasında və digər qeyri-yaşayış sahələrində, Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin, eləcə də nazirliyin inzibati binasında cari təmir işləri aparılıb. Mülki Müdafiə Alayının içməli və texniki su ilə təminatı diqqət mərkəzində saxlanılıb, yeni hidrofor sistemli su xətləri çəkilib, 3 aylıq ərzaq ehtiyatı, yanacaq-sürtgü materialları və əşya xidmətləri üzrə zəruri ehtiyatlar yaradılıb. Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin 3 ədəd "Zil" markalı və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin 1 ədəd "Kamaz" markalı yanğın avtomobili və əməliyyat minik avtomobili təmir edilib.

Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin olunması üçün zəruri tədbirlər həyata keçirilib, 1825 obyektdə əsaslı, 1480 obyektdə nəzəri yanğın texniki müayinələr aparılıb. 105 min 425 fərdi yaşayış evində, 324 dövlət yaşayış binasının 16 min 387 mənzilində reydlər keçirilərək 431 ədəd əlavə çəkilmiş elektrik xəttinin, qeyri-standart elektrik qızdırıcıları və yanğın cəhətdən qorxulu olan nasaz elektrik sahəsinin, 439 şlanqla çəkilmiş qaz xəttinin və qeyri-standart qaz sobalarının istismarı dayandırılıb, 71 ədəd yanğın ehtimalı baxımından təhlükəli olan ot-saman tayaları təhlükəsiz yerə köçürülüb. 284 min 870 nəfər təlimatlandırılıb və 20 min 290 ədəd yaddaş kitabçası paylanılıb.

Bildirilib ki, qış mövsümündə yanğın partlayışlarının və dəm qazından boğulma hallarının qarşısının alınması məqsədilə mənzillərdə və qazla iş rejiminə keçmiş 595 qazanxanada qazdan qeyri-qanuni istifadəyə və təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarət edilib, ocaqçılara yanğın əleyhinə təlimatlar təqdim edilib, baş verə biləcək xoşagəlməz hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər həyata keçirilib. Aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, yanğınların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 47 faiz azalıb.

2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla bağlı sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması ilə bağlı müvafiq tədbirlər görülüb, muxtar respublika ərazisində fəaliyyət göstərən dəyirmanlardakı qurğulara texniki təhlükəsizlik sertifikatı verilib. Dövlət Taxıl Fondunun taxıl anbarlarına baxış keçirilib, rütubət və temperaturölçmə cihazlarının işlək vəziyyətdə olması və ildırımötürücülərin sazlığı yoxlanılıb. Duz istehsal olunan şaxtalara baxış keçirilib, ehtiyat çıxışın işıqlandırılması, yolun artıq əşya və tullantılardan təmizlənməsi təmin edilib, şaxtada iki yerdə bərkidilmə aparılması üçün tövsiyələr verilib.

Nazir deyib ki, elektrik qurğularından səmərəli istifadə, qurğuların qaydalara uyğun quraşdırılması, qışda havaların soyuması ilə əlaqədar elektrik enerjisinə olan tələbatın artması və müvafiq olaraq transformatorların və naqillərin qızmasının qarşısının alınması ilə bağlı maarifləndirici tədbir keçirilib. Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində, Naxçıvan Beynəlxalq Hava Limanında və muxtar respublikada fəaliyyət göstərən 21 yanacaqdoldurma məntəqəsində çənlərə baxış keçirilib, Naxçıvan şəhərində inzibati və ictimai yaşayış binalarında olan liftlərin texniki təhlükəsizliyi yoxlanılıb.

Məruzə ətrafında fövqəladə hallar nazirinin müavini, daxili xidmət polkovnik-leytenantı Nurlan Həsənovun, nazirliyin texniki tənzimləmə sektorunun müdiri Aydın Quliyevin, Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Şakir Ağalarovun və Ordubad Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Tural Sadiqovun çıxışları olub.

Müşavirəyə fövqəladə hallar naziri Şamı Abdullayev yekun vurub.

✍ **Səbuhi HƏSƏNOV**

## Avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidlə bağlı işlər yekunlaşmaq üzrədir

***Azərbaycan Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, əhalinin sosial müdafiəsi sahəsində də bir sıra uğurlu islahatlar aparılıb və təkmil sığorta-pensiya sistemi formalaşdırılıb.***

Fərdi uçot sisteminə əsaslanan yeni sığorta-pensiya sistemi işləyən vətəndaşların Dövlət Sosial Müdafiə Fonduna ödəmiş olduqları məcburi dövlət sosial sığorta haqlarına əsasən, pensiya təyinatını özündə əks etdirir. Bu məqsədlə dövlət və özəl müəssisələrdə çalışan işçilər, həmçinin fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslər və mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olan torpaq mülkiyyətçiləri Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən qeydiyyata alınıb, onlara sosial sığorta şəhadətnamələri verilib və fondda fərdi şəxsi hesab açılıb. 2006-cı il yanvarın 1-dən həmin kateqoriyadan olan vətəndaşların (sığortaolunanların) ödəmiş olduqları məcburi dövlət sosial sığorta haqları onların fərdi şəxsi hesablarında toplanılıb. Sığortaolunanlar pensiyaya çıxanda toplanmış məcburi dövlət sosial sığorta haqlarından onlara pensiya təyinatı aparılacaq. Sığortaolunanlara təyin olunan pensiyanın məbləği onların fərdi şəxsi hesablarında olan məcburi dövlət sosial sığorta haqlarının məbləğindən və sığorta stajlarından asılıdır. Bunlar nə qədər çox olarsa, sığortaolunanın pensiyası da ona uyğun çox olacaqdır.

"2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"na əsasən, avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidin təmin olunması məqsədilə müvafiq tədbirlərin davam etdirilməsi nəzərdə tutulub və ardıcıl olaraq həmin tədbirlər həyata keçirilir.

Həmin tədbirlərdən biri vətəndaşların (sığortaolunanların) 2006-cı il yanvar ayının 1-dək bütün əmək fəaliyyəti dövrlərinin onların fərdi şəxsi hesablarına işlənilməsindən ibarətdir. Bunun əhəmiyyəti nədən ibarətdir? Birinci növbədə, avtomatlaşdırılmış pensiya təyinatı sistemində insan amili aradan qaldırılır, sığortaolunanlar bəzi sənədlər hazırlamaqdan azad olurlar və əmək pensiyasının məbləği xüsusi proqram vasitəsilə qısa müddətdə hesablanaraq sığortaolunana təqdim edilir. Eyni zamanda sığortaolunan internet vasitəsilə əmək pensiyasının məbləğini qabaqcadan hesablamaq imkanı əldə edir.

Hazırda bu sistem formalaşdırılmaqdadır. Bu məqsədlə sığortaolunanların 2006-cı il yanvarın 1-dək bütün əmək fəaliyyəti dövrlərinin onların fərdi şəxsi hesablarına işlənilməsi prosesi artıq başa çatdırılıb.

Sığortaolunanların sığorta stajlarının toplanılması onların əmək kitabçalarında əks olunan məlumatlar əsasında aparılır. Sığortaolunanın əmək kitabçasına əsasən, əmək fəaliyyəti barədə məlumatlar xüsusi hazırlanmış proqram təminatına işlənərək həmin müddətlər vətəndaşın fərdi şəxsi hesabında sığorta stajı kimi öz əksini tapıb. Qeyd edək ki, əmək stajlarının toplanılması bütün sığortaolunanlar, o cümlədən fiziki şəxslər və torpaq mülkiyyətçiləri üzrə də aparılıb.

2006-cı il yanvar ayının 1-dək sığortaolunanların əmək fəaliyyətinin proqram təminatında qeyd olunması pensiya təyinatında onların həm staj baxımından pensiya təminatı hüququnun yaranmasına, həm də təyin olunacaq pensiyanın məbləğinə təsir edəcəkdir.

Sığorta stajı və məcburi dövlət sosial sığorta haqlarının məbləği pensiya təyinatı üçün tələb olunan əsas göstəricilərdir. Bu göstəricilər də sığortaolunanın fərdi şəxsi hesabında öz əksini tapdığından avtomatlaşdırılmış qaydada xüsusi hazırlanmış proqram vasitəsilə vətəndaşa həmin məlumatlar əsasında pensiya təyinatı aparılacaqdır. Beləliklə, sığortaolunan əlavə sənədlər hazırlamaqdan azad olacaqdır.

Pensiya yaşına çatmış hər bir vətəndaş hər hansı bir sənəd toplamadan və vaxt itirmədən təyin olunmuş telefon nömrəsinə zəng vurub şəxsiyyət vəsiqəsinin nömrəsi barədə məlumat verməklə real vaxt rejimində pensiya təyinatı hüququnu reallaşdıra bilər. Vətəndaşdan tələb olunan məlumat isə yalnız şəxsiyyət vəsiqəsinin nömrəsidir. Bu məlumat dərhal sistemə daxil ediləcək, təsdiqləndiyi halda Dövlət Sosial Müdafiə Fondunun fərdi məlumatlar bazasına inteqrə edilərək avtomatlaşdırılmış qaydada əmək pensiyası təyinatı aparılacaq və vətəndaşa ona təyin olunan pensiyanın məbləği bildiriləcəkdir. Eyni zamanda zəng edən şəxsə öz plastik pensiya kartını ala biləcəyi müvəkkil bankın filialının (şöbəsinin) ünvanı da çatdırılacaqdır. Bu, sistemdə şəffaflığın daha da artmasını təmin etməklə yanaşı, əlavə vaxt itkisinin qarşısının alınmasına, vətəndaşlarla fond orqanları arasında münasibətlərin sadələşdirilməsinə də şərait yaradır.

2006-2014-cü illər üzrə sığortaedənlər və sığortaolunanlar tərəfindən təqdim edilmiş məcburi dövlət sosial sığortası üzrə sığortaolunanlar haqqında məlumatlar və 2006-cı ilədək mövcud olan əmək stajlarına qanunvericiliyə uyğun hesablanmış pensiya kapitalları barədə məlumatların fondda hər bir sığortaolunan üçün açılmış fərdi şəxsi hesablara işlənilməsi işləri başa çatdırılıb. Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda pensiya təyinatının avtomatlaşdırılması üçün görülən tədbirlərin mühüm istiqamətlərindən biri kimi müasir infrastrukturun qurulması və texniki məsələlər başa çatmaq üzrədir.

Qabaqcıl texnologiyaların sığortaolunanların və əmək pensiyaçılarının gündəlik həyatının müxtəlif sahələrində tətbiqini təmin etmək məqsədilə də Naxçıvan Muxtar Respublikasında ardıcıl və məqsədyönlü işlər görülməkdədir.

"Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet saytının ***(www.dsmf.nakhchivan.az)*** yaradılması da vətəndaşların fonda elektron müraciət etmələrinə geniş imkanlar açıb.

Elektron xidmət vasitəsilə sığortaolunanların fərdi şəxsi hesablarına toplanan pensiya kapitalları barədə məlumat əldə edə bilmələrinin təmin olunması da bu istiqamətdəki uğurlu addımlardan biridir. Beləliklə, artıq istinilən sığortaolunan Dövlət Sosial Müdafiə Fondu tərəfindən açılmış fərdi şəxsi hesabında illər üzrə əks olunan pensiya kapitalına nəzarət etmək imkanı əldə edəcək. Bu, sistemdə şəffaflığın daha da artmasına səbəb olmaqla yanaşı, həm işəgötürənlər üzərində ictimai nəzarətin təşkilinə, həm də yaxın gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatına keçmək üçün qarşıya qoyulan vəzifənin yerinə yetirilməsinə imkan verəcəkdir. Başqa sözlə, hər bir işləyən vətəndaş sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək və gələcəkdə etibarlı pensiya təminatı əldə etmək imkanına malik olacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Gələcəyi olmayan kənd

*Bu yaxınlarda Ermənistan mətbuatında "Gələcəyi olmayan kənd" adlı yazı dərc olunmuşdur. Düşmən ölkədə yaşayışın çətinliyi və əhalinin köçüb getməsindən bəhs edən həmin yazı ilə oxucuları tanış edirik.*

Ermənistanın Ararat rayonunun Yerasx kəndi Yerevandan cəmisi 60 kilometrlikdə yerləşir. Lakin onun mövqeyi və sərhədyanı yaşayış məskəni statusu, ilk növbədə, Naxçıvanla qonşu olması ilə müəyyənləşir. Bu qonşuluq çox şərtidir, çünki o, tökmə torpaq, qum doldurulmuş çəllək və kisələr, bir də nə vaxtlarsa qardaş olmuş xalqları ayıran tikanlı məftillərlə bitir. Avtomobil trasının Yerasxdan Kərkiyəcən olan hissəsi boyunca tökmə torpaq qurğusunu Naxçıvan tərəfdən açılan atəşlərin qarşısını almaq məqsədilə bir neçə il əvvəl qonşuların bir sıra sərrast atəşindən sonra yaratmışlar. Qum doldurulmuş çəllək və kisələr isə Ermənistan silahlı qüvvələrinin mövqeyinin sonuncu dəfə gözlənilmədən atəşə tutulmasından və iki hərbi qulluqçunun ölümündən sonra meydana çıxdı. Kəndin 127 təsərrüfatında rəsmən minə yaxın sakin yaşayır. Əslində isə yerasxlıların sayı 750 nəfəri keçmir. Kənd Araz çayı vadisində münbit Ararat düzənliyinin ən aşağı nöqtəsində yerləşir və əkilən torpaqlar və bağlarla əhatə olunur. Bununla belə, əhalinin bir hissəsi daha yaxşı yaşayış axtarışı ilə doğma kəndini tərk etmiş və əsasən, Rusiya olmaqla digər daimi yaşayış yerlərinə köçmüşlər. Kənddə qalan sakinlər bu cür qonşuluq şəraitində yaşamağa alışmışlar. Bəziləri isə bütün sosial-iqtisadi problemlərini şərtləndirən Yerasxı sərhədyanı kənd olması ucbatından tərk edirlər.

Kənddən müvəqqəti və daimi miqrasiyaya dair 42 yaşlı Vardanın (nədənsə o, familiyasını söyləmək istəmədi) öz versiyası vardır. Onun əqidəsinə görə, hər şeyin günahkarı kəndliləri kreditin qarmağına keçirən banklardır. Dırnaqarası güzəştli kreditlər, əsasən, kənd təsərrüfatının inkişaf etdirilməsi üzrə dövlət proqramları çərçivəsində ayrılır. Lakin bu kreditlər ildə 24 faizə çatan, kəndlilər üçün çox yüksək olan dərəcələrlə verilir. Nəticədə, onu yazda götürənlər ilin axırında ən yaxşı halda bütün məbləği faizləri ilə bir yerdə banklara qaytarır, özləri isə heç nəsiz qalırlar. Pis halda isə məhsulu hesabına banklarla hesablaşma qabiliyyətində olmayanlar pul qazanmaq ümidi ilə çıxıb Rusiyaya gedirlər. "Bununla yanaşı, kəndlilərin özləri də az etmirlər. Bir çoxları kənd təsərrüfatı kreditini götürür, torpaq əkmək əvəzinə özlərinə, məsələn, plazmalı televizor alır. Məntiq, təqribən, belə olur: odur ey, qonşunun varıdı, mənim ondan nəyim kəsirdi ki? Gedir, özünə qonşununkundan da böyük televizor alır. Krediti necə ödəyəcəkdir? Bu haqda artıq Rusiyada fikirləşməli olur", – deyən Yerasx sakini gülümsəyir.

*Mütəxəssis sözü*

## Taxılçılıqda rayonlaşdırılmış keyfiyyətli toxum seçimi məhsuldarlığa təsir edən əsas amildir

***Taxılçılıq muxtar respublikada kənd təsərrüfatının ən vacib sahələrindən biridir. Ərazinin torpaq-iqlim şəraiti bu vacib sahənin inkişafı üçün çox əlverişlidir. Odur ki, intensiv texnologiyalara üstünlük verilməklə taxıl əkini sahələri ilbəil genişləndirilir. Dövlətimizin aqrar sahənin, xüsusilə taxılçılığın inkişafı üçün gördüyü tədbirlərlə yanaşı, məhsuldar toxum sortlarından istifadə olunması, şırım üsulundan istifadəyə üstünlük verilməsi, suvarma şəbəkələrinin genişləndirilməsi və kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə torpaq mülkiyyətçilərinə verilməsi taxıl istehsalını xeyli artırmışdır.***



Bol və keyfiyyətli məhsul əldə etmək məqsədilə yerinə yetirilən kompleks aqrotexniki tədbirlər içərisində ərazinin torpaq-iqlim şəraitinə uyğun taxıl sortlarının seçilməsi, rayonlaşdırılmış keyfiyyətli səpin materialından istifadə edilməsi və toxumun səpin üçün düzgün hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

Bioloji xüsusiyyətlərinə görə torpaq-iqlim şəraitinə uyğun rayonlaşdırılmış taxıl sortlarından istifadə məhsuldarlığı xeyli artırır. Ona görə də taxıl əkininin yerli torpaq-iqlim şəraitinə uyğun sortlarla keçirilməsi daha məqsədəuyğundur. Əkiləcək torpaq sahələrinin təsnifatına, həmçinin sələfinə görə düzgün seçilməsi də məhsuldarlığın artmasına təsir göstərən amillərdəndir. Bu məqsədlə muxtar respublikanın torpaq-iqlim şəraitinə və torpaq tiplərinə uyğun əkin atlasları hazırlanmış və aidiyyəti təşkilatlara təqdim olunmuşdur.

Əkin atlaslarından istifadə etmək muxtar respublikanın hər bir rayonu üçün xarakterik rayonlaşdırılmış sortların əkilməsi, torpaq-iqlim şəraitinə görə becərmə texnologiyasının tətbiqi baxımından çox önəmlidir.

Sahəyə yüksəkkeyfiyyətli toxumların səpilməsi məhsuldarlığın artırılmasında mühüm şərtdir. Toxum üçün ayrılmış sahələr yüksək aqrotexniki qaydada becərilməli, sortların bioloji xüsusiyyətləri nəzərə alınmaqla gübrələnməli, səpin optimal müddətdə, düzgün təyin edilmiş normada və qısa vaxt ərzində aparılmalıdır.

Sahədən qəbul olunmuş toxum materialını səpinə hazırlayarkən onun təmizlənməsi, qurudulması, sortlaşdırılması və dərmanlanması işləri ardıcıllıqla yerinə yetirilməlidir.

Toxum sahədən daşındıqdan sonra mexanikləşdirilmiş toxumtəmizləyən aqreqatlardan keçirilməlidir. Təmizlənmə prosesində canlı və ölü qarışıqlar, yarpaq və gövdə qalıqları, torpaq hissəcikləri, zədələnmiş və qırılmış toxumlar, alaq otlarının toxumları və sair ayrılmalıdır. Qeyd etmək lazımdır ki, qarışıqlarda rütubətin intensivliyi daha yüksək olduğuna görə toxumun təmizlənmədən uzun müddət qarışıqlarla bir yerdə saxlanması onun qızışmasına və nəticədə, səpin keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Odur ki, toxum xırmana daşındıqdan sonra təcili təmizlənməyə verilməlidir.

Təmizləndikdən sonra toxumlar tələb olunan kondisiyayadək qurudulmalıdır. Toxumun rütubətliliyi çox olduqda onda tənəffüs prosesi güclənir, karbon qazının ayrılması çoxalır, rütubət və istiliyin miqdarı artır. Nəticədə, öz-özünə qızışma baş verir ki, bu da toxumun cücərmə qabiliyyətinə və digər keyfiyyətlərinə mənfi təsir göstərir. Əgər toxum nəmdirsə, onu sahədən daşıyarkən adi qaydada xırmanda sərib qurutmaq, lazımi rütubətliliyə (14-15 faiz) çatdırdıqdan sonra təmizlənməyə buraxmaq lazımdır. Toxum təmizləndikdən və qurudulduqdan sonra sortlaşdırılır. Burada əsas məqsəd səpin materialını xırda, cılız toxumlardan təmizləməkdir. Bu tədbir 1000 dənin kütləsinin artmasına, eynicinsli və eyniçəkili toxum fraksiyası əldə edilməsinə imkan yaradır. Bunun üçün toxumtəmizləyən aqreqatlardan istifadə vacibdir.

Toxumlar sortluq və əkin keyfiyyətlərinə görə qiymətləndirilir. Sortluq keyfiyyəti dedikdə sortun özünəməxsus əlamət və keyfiyyəti nəzərdə tutulur. Səpin keyfiyyətinə isə təmizliyi, cücərməsi, cücərmə enerjisi, rütubətliliyi, 1000 dənin çəkisi, ziyanverici və xəstəliklərə davamlılığı kimi amillər daxildir. Toxumların təmizliyi əsas bitki toxumlarının analiz üçün götürülmüş toxum çəkisinə nisbətən qarışıqların çəkisi ilə xarakterizə olunur. Standarta görə, əsas bitki toxumunun təmizliyi 97 faizdən az olmamalıdır.

Toxumlar səpin keyfiyyətinə görə kateqoriyalara bölünür. Məsələn, yumşaq buğda toxumları səpin keyfiyyətinə görə aşağıda qeyd olunan göstəricilərdən az olmamalıdır: I sinfin təmizliyi 99 faiz, cücərməsi 95 faiz, II sinfinki 98 faiz və 92 faiz, III sinfinki 97 və 90 faiz.

Əkin keyfiyyətinə görə I, II və III sinfə aid toxumlar kondisiyalı toxumlar adlanır.

Toxumların cücərmə qabiliyyəti də yüksək olmalıdır. Cücərmə qabiliyyəti 85 faizdən aşağı olan toxumlar səpin üçün yararsız sayılır.

Toxumların rütubətliliyi quru toxumun çəkisinə nisbətən faizlə ifadə olunur.

Tərkibində 14 faizdən çox su olmayan toxumlar əlverişsiz şəraitə yaxşı davam gətirir. Rütubətliliyi normadan yüksək toxumların isə cücərmə qabiliyyəti azalır, keyfiyyəti aşağı düşür, onlar xəstəliklərə asan tutulur. Uzun müddət saxlanılan, normal rütubətliliyə malik dənlərdə tənəffüs prosesi normal gedir, çürümə baş vermir, mikroorqanizmlər (kif göbələyi və bakteriyalar) onu zədələyə bilmir. Buğda, arpa, çovdarın tərkibində 14 faizdən çox rütubət olmamalıdır.

Toxumların çəkisi onların mütləq, yəni 1000 dənin çəkisi ilə təyin edilir. 1000 dənin çəkisi nə qədər çox olarsa, məhsuldarlıq yüksək olar. Adətən, səpin üçün 1000 dənin çəkisinin 42-44 qram olması normal hesab edilir.

Səpin üçün istifadə ediləcək dənlər eyni irilikdə olmalıdır. Əks təqdirdə, sünbüllərdə boyca bərabər olmayan toxumlar əmələ gəlir. Belə ki, sünbülün orta hissəsində dənlər iri, üst və alt hissələrində isə xırda olur. Bunları döydükdə eyni çəkidə olmayan dənlər alınır. Səpin belə dənlərlə aparılarsa, cücərtilər bir vaxtda çıxmaz. Ona görə də toxum başqa kondisiyalı qarışıqlardan təmizlənməli, cücərmə qabiliyyəti, mütləq çəkisi yüksək dənlər bir boyda olmalı, xəstəlik və ziyanvericilərə yoluxmamalıdır. Toxumlar çeşidləmə vasitəsilə bərabərləşdirilir.

Toxumluq materialın səpin keyfiyyətini xarakterizə edən amillərdən biri də onların xəstəlik və ziyanvericilərə qarşı davamlı olmalarıdır. Toxum materialının fitopatoloji ekspertizası göstərir ki, onlar bir çox parazit göbələklərin bərk və tozlu sürmə sporları, kif göbələklərinin sporları, kök çürüməsi xəstəliklərinin törədiciləri, bakteriyalar, viruslar və digər xəstəliklərin törədiciləri ilə yoluxur. Bu xəstəliklərin təsiri nəticəsində toxumun cücərmə faizi və keyfiyyəti aşağı düşür, nəticədə, səpin normasına düzgün əməl edilsə belə, sahədə arzuolunan sayda sağlam cücərti alınması mümkün olmur.

Seçim zamanı toxumluq sahələrindən götürülmüş nümunələrin sünbülləri bərk və tozlu sürmə sporları ilə sirayətlənibsə, bu sahələrdən götürülmüş məhsul səpin üçün yararsız hesab olunur və onun səpilməsinə icazə verilmir.

Aparılmış tədqiqatlar göstərir ki, toxumla yayılan xəstəliklər bütün əkinçilik zonalarında təbii iqlim şəraitindən asılı olaraq bu və ya digər səviyyədə yayılır və dənli bitkilərin məhsuldarlığına ciddi ziyan vurur.

Elmi-tədqiqat müşahidələri göstərir ki, toz sürmə xəstəliyinin sporları ilə yoluxmuş sahələrdə bitkilərin sıxlığı 32 faiz, kollanması 11 faiz, bərk sürmə sporları ilə yoluxmuş sahələrdə isə sünbüllərdə dənlərin sayı 10-15 faiz aşağı düşür.

Toxumla yayılan xəstəliklərin qarşısını almaq və onlara qarşı mübarizə aparmaq üçün səpiləcək toxumun dərmanlanması ən vacib təsərrüfat tədbirlərindən biridir. Dərmanlanmanı 2 müddətdə – səpinqabağı və səpindən xeyli qabaq aparmaq məsləhət görülür. Səpinqabağı dərmanlanma səpinə 5-10 gün qalmış aparılır. Bu zaman dərman toxumu yalnız səthi infeksiyalardan mühafizə edir, onun daxilinə nüfuz edə bilmir. Odur ki, səpinqabağı dərmanlanma toxumları xəstəliklərdən qorumaqda az effektli olur. Toxum materialını səpinə 1-3 ay qalmış dərmanlamaq daha səmərəli və keyfiyyətli üsul hesab edilir. Çünki burada həm dərmanın məsarif norması azalır, həm də onun təsir gücü artır.

Dənli bitki toxumlarının dərmanlanmasında aşağıdakı preparatlardan istifadə etmək olar:

*1. Qranozon 1,5 kq/ton*
*2. Vitovaks 3 kq/ton*
*3. TMTD 3 kq/ton*
*4. Dinit 1,5 kq/ton*
*5. Alyans 1,5 kq/ton*

Toxumun dərmanlanması mütləq və zəruri tədbirlərdəndir. Onun bütün şəxsi təsərrüfatlarda həyata keçirilməsi vacibdir. Dərmanlanma zamanı təhlükəsizlik tədbirlərinə ciddi əməl olunmalıdır; respiratorlardan, rezin əlcək və çəkmələrdən, eynəklərdən və sair vasitələrdən istifadə olunmalıdır.

Taxıl əkinlərinin aparılmasında toxum tədarükü mühüm yer tutur. Əkin üçün toxum tədarük edilən zaman sortundan və növündən asılı olmayaraq, səpindən qabaq toxumun təsərrüfat yararlılığı müəyyənləşdirilməlidir. Əkiləcək toxumdan nümunələr götürüb toxum müfəttişliyinin laboratoriyasında analiz etmək lazımdır. Analiz sənədində toxumun cücərmə qabiliyyəti, təmizliyi, sinfi, 1 kiloqram toxumun içərisindəki alaq toxumlarının sayı, 1000 ədəd dənin çəkisi, toxumun təsərrüfat yararlılığı, xəstəlik və zərərvericilərlə sirayətlənmə dərəcəsi və digər göstəricilər qeyd olunur. Bu sənədə görə, səpin dövründə toxumun səpin norması müəyyənləşdirilir.

Qazanılan təcrübə əsasında müəyyən edilmişdir ki, taxıl əkini keçirən zaman əkiləcək yerin torpaq-iqlim şəraitinə uyğunlaşmış, yəni rayonlaşdırılmış sortlardan istifadə məhsuldarlığın artırılması baxımından daha əhəmiyyətlidir.

Muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun rayonlaşdırılmış buğdanın "Dağdaş", "Quality", "Quadilop", "Bezostaya-1", "Əzəmətli", "Nurlu", "Qiymətli", "Əlincə", "Gilavar", "Ceyhan-99", "Qobustan", arpanın isə "Naxçıvan dəni", "Qarabağ-7", "Cəlilabad-19" sortlarından istifadə edilməsi məsləhətdir.

Qeyd olunan buğda sortları yerli torpaq-iqlim şəraitinə uyğun, məhsuldar olmaqla yanaşı, yüksək və keyfiyyətli un çıxımı verir ki, bu da çörəkbişirmə sənayesində geniş istifadə olunur.

*Məlumat üçün bildirək ki, taxılçılıqla məşğul olan sahibkarlar bu sortları muxtar respublikada fəaliyyət göstərən toxumçuluq təsərrüfatlarına, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə və onun rayonlardakı bazalarına müraciət etməklə əldə edə bilərlər.*

**Məmmədqulu SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

***Bildiriş***

"Qurbanoğlu" MMC (VÖEN-0200068481) fəaliyyəti dayandırıldığından ləğv olunur.

* * *

"Şölə" MMC (VÖEN-0900065251) fəaliyyəti dayandırıldığından ləğv olunur.

***İtmişdir***

Naxçıvan şəhəri, "Atabəylər" məhəlləsi, bina 2, mənzil 19-da yaşamış Sadiqova Natiqə Kərim qızının adına olan 6762 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Aşağı Qışlaq kənd sakini Ələkbərov Yusif Ələkbər oğlunun adına olan JN-019A inventar nömrəli, 10500038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi iş yoldaşları Aysel İsmayılovaya, əzizi **HEYDƏRƏLİNİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan şəhər 1 nömrəli uşaq bağçasının kollektivi bağçanın müdiri Səadət Qasımovaya, atası **AYDIN QASIMOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 685**